

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 53 (23.940)

*18 mart 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış edərək xatırladıb ki, gənc güləşçilərimiz həmin çempionatda böyük uğura imza atdılar, 16 medal qazanıldı, onlardan 7-si qızıl medaldır. Bu, çox böyük nailiyyətdir. Komanda hesabında bizim komandamız birinci yerə layiq görülmüşdür. Prezident İlham Əliyev bu münasibətlə təbriklərini çatdıraraq qeyd edib ki, bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir.

Beynəlxalq idman qurumlarının Azərbaycana çox böyük rəğbətlə yanaşmasından danışan dövlətimizin başçısı deyib: "Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək".

Sərbəst güləş üzrə Azərbaycan yığmasının baş məşqçisi Namiq Abdullayev, Azərbaycan Güləş Federasiyasının prezidenti Mikayıl Cabbarov görüşdə çıxış ediblər.



*Dövlət proqramı icra olunur*

## Uşaqların sağlamlığının qorunması ilə bağlı tədbirlər davam etdirilir

*Ölkəmizdə uşaqların sağlam böyüməli, onların vətənpərvər ruhda yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqətdə saxladığı əsas məsələlərdəndir. Ümummilli lider Heydər Əliyev demişdir: **"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gənclərdir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".***

Uşağın sağlam böyüməsi onun düzgün qidalanmasından fiziki hazırlığına, ətraf mühitdən mənəvi aləmə qədər bir çox faktordan asılıdır. Lakin hər bir halda cəmiyyətdə sağlam uşaqların formalaşması üçün ilkin şərtlərdən biri pediatrik xidmətin keyfiyyətli təşkilidir. Uşaqların vaxtında tibbi müayinədən keçirilməsi onlarda baş verə biləcək xəstəliklərin erkən aşkarlanmasına imkan verir və xəstəliklərlə mübarizəni asanlaşdırır. Bu istiqamətdə tibbi xidmətin səmərəli təşkili isə, ilk növbədə, müasir infrastruktur imkanlarının mövcudluğunu zəruri edir. Məhz Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın məqsədlərindən biri uşaqların dispanserizasiyasını həyata keçirən tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, onların müasir tibbi texnika və avadanlıqlarla təchizatının yaxşılaşdırılmasıdır. Dövlət proqramından irəli gələn tədbirlərin icrası 2021-ci ildə də diqqətdə saxlanılmışdır.

Ötən il aprelin 9-da Ordubad Rayon Uşaq Xəstəxanası istifadəyə verilmişdir. Bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ordubad rayonunda da uşaq xəstəxanasının yaradılmasına ehtiyac var idi. Müvafiq Sərəncamdan sonra burada lazımi işlər həyata keçirilmiş və bu gün kollektivin istifadəsinə 54 adda müxtəlif təyinatlı tibbi avadanlıqlarla təmin olunmuş, stasionar və poliklinika şöbələrindən ibarət olan müasir uşaq xəstəxanası verilir. Səhiyyə müəssisəsində hərtərəfli şərait yaradılmışdır. Bu da kollektivin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsinə imkan verəcəkdir. Qarşıda duran əsas vəzifə rayonda bütün uşaqların qeydiyyata alınması, Dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi və uşaqların sağlamlığının diqqətdə saxlanılmasıdır. Ona görə ki, uşaqlar gələcəyimizdir. Onların sağlam böyüməsi, yaxşı təhsil alması isə ölkənin gələcəyinə xidmət edir".***

Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan səhiyyə ocağında tibbi heyətin səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılmış, xəstəxanaya "FİAT" markalı təcili tibbi yardım avtomobili verilmişdir.

Planlı tibbi müayinələrin aparılması uşaq əhalisinin inkişafının ümumi qanunauyğunluqlarını müəyyənləşdirməyə və onların sağlamlığının formalaşmasına təsir edən amilləri aydınlaşdırmağa imkan verir. Bu tədbirlərin davamlı xarakter alması hər bir uşağın sağlamlıq vəziyyətinin təyin edilməsi, lazımi sağlamlaşdırıcı və müalicə tədbirlərinin aparılması baxımından olduqca əhəmiyyətlidir. Proqramın icrasına uyğun olaraq ötən ilin yaz və payız mövsümlərində, ümumilikdə, 86 min 75 uşaq dərin tibbi müayinələrə cəlb edilmiş, onlardan 9 min 63-ü dispanser nəzarətə götürülmüşdür. Bu dövrdə qurd invaziyasına görə 365, psixonevroloji simptomlara görə 265 uşağın ixtisaslı tibb müəssisələrində müalicəsi təşkil olunmuşdur.

Cəmiyyətdə sosial qayğıya ehtiyacı olanların xüsusi bir qrupunu sağlamlıq imkanları məhdud uşaqlar





təşkil edir. Muxtar respublikada bu sosial kateqoriyanın nümayəndələri yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Onların təhsil imkanlarının genişləndirilməsi və cəmiyyətə inteqrasiya olunmaları üçün ardıcıl tədbirlər görülür. Məhdud fiziki imkanlı uşaqların tibbi reabilitasiyası ilə bağlı görülən işlər də onların sosial statusunun bərpa edilməsinə yönəlmişdir. Ötən il proqramın icrası istiqamətində 279 sağlamlıq imkanları məhdud uşağın Naxçıvan Uşaq Bərpa Mərkəzində müalicəsi təşkil olunmuşdur. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 171 sağlamlıq imkanları məhdud uşaqla reabilitasiya tədbirləri həyata keçirilmişdir. Bu kateqoriyadan olan 55 uşaq texniki reabilitasiya və digər köməkçi vasitələrlə təmin olunmuş, 66 uşağa protez-ortopedik xidmət göstərilmişdir. Bu isə Dövlət proqramı çərçivəsində sağlamlıq imkanları məhdud uşaqlar üçün texniki-bərpa tədbirlərinin də xüsusi diqqətdə saxlanılmasından xəbər verir.

Ötən il proqramda uşaqlara xidmət göstərən tibb müəssisələrində çalışan tibb işçilərinin nəzəri və praktik hazırlığının artırılması ilə bağlı tədbirlər də davam etdirilmişdir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında uşaqlarda təcili təxirəsalınmaz vəziyyətlərin yaranma səbəbləri və onların aradan qaldırılması yolları haqqında metodik vəsait hazırlanaraq tibb məntəqələrinə paylanmışdır. Tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə 73 müxtəlif xəstəlik üzrə tibbi protokollar tibb müəssisələrinə paylanılması üçün yenidən hazırlanaraq çap olunmuşdur. Culfa Rayon Mərkəzi Xəstəxanasında həkim və tibb bacıları üçün "Peyvəndlərin vurulması zamanı rast gəlinən nadir ağırlaşmalar və bu ağırlaşmalarda müşahidə olunan xəstəliklərin qarşısının alınması və müalicəsi" mövzusunda seminar təşkil edilmişdir. Ümumilikdə, 9 tibb işçisinin xarici ölkələrə, 35 tibb işçisinin isə Bakı şəhərinə kursa göndərilməsində məqsəd müasir və beynəlxalq təcrübənin öyrənilməsi olmuşdur.

Mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də əhalinin tibbi biliklərinin artırılmasıdır. Erkən uşaqlıq dövrü xəstəlikləri ilə bağlı valideynlərə dəstək və onların maarifləndirilməsi uşağın müsbət inkişafını təmin etməyin səmərəli üsullarından biri hesab olunur. Ötən il Dövlət proqramı çərçivəsində müayinələr aparılan zaman sağlam həyat tərzi, xəstəliklərin risk amilləri və erkən simptomları üzrə valideynlər və uşaqlar arasında 300 nüsxə buklet paylanmışdır.

Uşaqlar ölkəmizin sabahı, bizim gələcəyimizdir. Onların qarşılaşdıqları problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər dövlətimizi parlaq, xoşbəxt gələcəyə aparır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var".***

**"Şərq qapısı"**

## Rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi istiqamətində görüşlər keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamına əsasən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq olunub.***



Qeyd olunan proqramın müvafiq bəndinə əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən görüşlərdə kart sahiblərinə nağdsız ödənişlərin üstünlükləri izah olunaraq nəzərə çatdırılıb ki, fərqli ödənişlərin eyni vaxtda evdən və ya iş yerindən ayrılmadan yerinə yetirilməsi, vergilərin, rüsumların və digər büdcə ödənişlərinin, kommunal xərclərin internet vasitəsilə ödənilməsi, elektron ödənişlərin qısa müddətdə şəxsi vərəqədə əks olunması, aviabiletlərin və digər mal və xidmətlərin internet vasitəsilə əldə olunması kimi üstünlükləri mövcuddur.

Qeyd olunub ki, nağdsız ödənişlərin əsas vasitələrindən olan POS-terminal aparatlarının tikinti, ticarət, xidmət və digər sahələrdə quraşdırılması təmin edilib. Həmçinin POS-terminalların tətbiqi kommunal xərclərin ödənilməsi üçün yerli poçt şöbələrində, şəxsiyyət vəsiqələrinin və xarici pasportlara ödənilən rüsum haqlarının ödənilməsi üçün Daxili İşlər Nazirliyinin Pasport Qeydiyyat şöbələrində quraşdırılıb. Kənd yerlərində yaşayan sakinlərin daha rahat ödənişini təmin etmək məqsədilə xidmət mərkəzlərində nağdsız ödənişlərin aparılması üçün də POS-terminal aparatları quraşdırılıb.

Bildirilib ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları üçün "CİB", Beynəlxalq bank Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları üçün "İBA-mobil", "Kapitalbank" Açıq Səhmdar Cəmiyyətinə məxsus ödəniş kartları üçün isə "Birbank" mobil tətbiqindən istifadə etmək mümkündür.

Keçirilən maarifləndirici tədbirlərdə bildirilib ki, 1 mart 2022-ci il tarixə muxtar respublika ərazisində quraşdırılan bankomatların sayı 116, POS-terminalların sayı 1554, ödəniş terminallarının sayı isə 150 ədəd təşkil edib. Cari ilin yanvar-fevral aylarında aparılan nağdsız əməliyyatların həcmi 24 milyon 719 min 639 manat olub ki, bunun da 18 milyon 076 min 962 manatı internet və digər ödəniş vasitələri, 6 milyon 642 min 677 manatı POS-terminallarla həyata keçirilib.

Qeyd edək ki, analoji tədbirlər cari ilin ötən dövründə Naxçıvan şəhəri və rayonlarında da keçirilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Naxçıvan Şəhər İcra Hakimiyyətində medalların təqdimatı olub



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2020-ci il 25 dekabr və 2021-ci il 24 iyun tarixli sərəncamları ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət göstərmiş hərbi qulluqçuları müxtəlif medallarla təltif edib. Təltif olunanlar arasında naxçıvanlılar da az deyil. Naxçıvan Şəhər İcra Hakimiyyətində həmin medalların, onların vəsiqələrinin şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçılarına təqdim edilməsi ilə bağlı növbəti tədbir keçirilib.*

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban gedən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, bu gün muxtar respublikamızda ordu quruculuğu sahəsində həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də Vətənə sədaqətli, peşəkar hərbi kadr hazırlığı ilə bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilib, kursantlar üçün müasir tədris, rahat məişət və yaşayış şəraiti yaradılıb. Bunun nəticəsidir ki, hərbi liseyin məzunları Azərbaycan Ordusunda xidməti vəzifələrini şərəflə yerinə yetirirlər. Bildirilib ki, illərdir, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz nəticəsini verdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində silahlı qüvvələrimiz 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qazandığı zəfərlə tarixi ədaləti bərpa etdi.

Qeyd olunub ki, Vətən müharibəsində iştirak edən, şəhid olan qəhrəmanların şücaəti gələcək nəsillərə örnəkdir və onların sırasında doğma Naxçıvanımızın mərd oğulları da çoxdur. Onlardan Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhid olmuş Naxçıvan şəhər sakinləri mayor Sadiq Həsənov, gizir Bağır Ələkbərov, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular Seymur İbrahimov, Xansu Qurbanov Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunublar. Həmin medallar onların ailə üzvlərinə təqdim olunacaq. Qazi, baş leytenant Hüseyn Həsənov, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular qazi, çavuş Nurlan Quliyev, Nurəddin Nəbiyev, Əyyub Sadıxov, müharibə iştirakçıları kiçik çavuş Nifti Məmmədov, Yusif Haqverdiyev, müddətdən artıq hərbi xidmət keçən hərbi qulluqçular Mir İsmayıl Süleymanov, Ayxan Fərzalızadə, Murad Əliyev, Müslüm Mazanov, əsgər Samir Əliyev, Elsun Nəcəfzadə, Aydın Şirinov "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Anar Aqilov çıxışında qeyd edib ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2908 hərbi qulluqçusu şəhid olub, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirib. Vətənin müdafiəsi uğrunda canlarından keçmiş şəhidlərimizin 15 nəfəri Naxçıvan şəhər qeydiyyatında olub. Vurğulanıb ki, ölkəmizdə şəhid adı daim uca tutulur, onların Vətən qarşısındakı xidmətləri yüksək qiymətləndirilir, dövlət təltiflərinə layiq görülürlər. Naxçıvanda da daim şəhid ailələri, qazi və müharibə iştirakçılarına hərtərəfli qayğı göstərilir, sosial müdafiələri gücləndirilir, mənzil və avtomobillərlə təmin olunurlar.

Sonra medalların təqdimatı olub, şəhid ailələri, qazi və Vətən müharibəsi iştirakçıları onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

✍ **Nail ƏSGƏROV**

## "Defscope" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada informasiya təhlükəsizliyinə həsr olunmuş ilk vebinar reallaşdırılıb

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "Defscope" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən nazirliyin və struktur bölmələrinin aidiyyəti əməkdaşlarına "Proqramlaşdırma, irihəcmli verilənlər, maşın öyrənməsi və süni intellekt kimi sahələrdə biliklərin inkişaf etdirilməsi, informasiya təhlükəsizliyi üzrə maariflənmənin artırılması və kiber təhlükəsizlik risklərindən qorunma üsulları" mövzusunda vebinar keçirilib.*





Tədbiri giriş sözü ilə açan rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rabitə və yeni texnologiyalar sahəsinə göstərdiyi diqqət və qayğıdan danışıb. Vurğulayıb ki, nazirlik tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu məqsədlə onlayn kurslar təşkil olunur, təlimlər keçirilir, müvafiq peşə ixtisasına malik olmayan əməkdaşların ixtisasartırma kurslarına cəlbi təşkil olunur. Nazir tədbirin mahiyyəti və əhəmiyyətindən bəhs edib.

"Defscope" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru, Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən "Sirius Computer Solutions" şirkətinin aparıcı məsləhətçisi, "İNSECO" İnformasiya Təhlükəsizliyi Təşkilatı İctimai Birliyinin həmtəsisçisi Vüsal Salmanlı kiber təhlükəsizliyin bu günün texnologiya dünyasında hər kəs üçün zəruri olduğunu vurğulayıb və bu səbəbdən veb-saytların və ya tətbiqlərin tərtibi zamanı kiber hücumlardan qorunmaq üçün təhlükəsizlik qaydalarına əməl edilməsinin vacibliyini diqqətə çatdırıb. Həmçinin vebinarda, serverlərin quraşdırılması və istifadəsi zamanı təhlükəsizlik qaydalarının gözlənilməsi, verilənlər bazasının etibarlı mühafizəsi, kompüter şəbəkələrinə, şəbəkə resurslarına icazəsiz girişlərin, onlardan qeyri-qanuni sui-istifadənin və bu kimi digər halların qarşısının alınması, məlumatların qorunmasında istifadəçinin mümkün kiberhücumlardan necə mühafizə olunması barədə ətraflı məlumat verib.

Sonda nazirliyin proqramçılarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə fevral ayı ərzində "Microsoft" korporasiyası və "HUAWEİ Technologies Azerbaijan" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən təlimlər keçirilib. Bu vebinar da həmin istiqamətdə həyata keçirilən tədbirlərin məntiqi davamıdır.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Novruz bayramı münasibətilə tədbirlər keçirilib



*Novruz bayramı münasibətilə Şahbuz şəhərində yerləşən Ahıllar Evində bayram tədbiri keçirilib. Tədbiri giriş sözü ilə açan Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev Ahıllar Evində sakinlərə yaradılan şəraitdən danışıb, əlamətdar günlərdə onlarla keçirilən görüşlərin artıq ənənə halını aldığını qeyd edib.*

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev çıxışında bildirib ki, hazırda Ahıllar Evi ilə yanaşı, tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan ahıllara evlərində də sosial xidmətlər göstərilir. Onlar vaxtaşırı həkim müayinəsindən keçirilir, müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları üçün səyyar xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir. Nicat Babayev ahıl sakinlərə göstərilən yüksək qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında qeyd edib ki, muxtar respublikamızda ahıl qadınlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunur və bu qayğı ildən-ilə artmaqdadır. Vurğulanıb ki, muxtar respublikamızda ahıl qadınlara müxtəlif sosial xidmətlərin göstərilməsi, sosial məsələlərin həlli daim diqqət mərkəzindədir.

Qeyd edək ki, sosial könüllülərin də iştirak etdiyi tədbirin bədii hissəsində Şahbuz Rayon Mədəniyyət Şöbəsinin "Batabat" instrumental ansamblı konsert proqramı ilə çıxış edib, sakinlərə bayram hədiyyələri təqdim olunub. Ahıl vətəndaşlar göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

* * *

Novruz bayramı ərəfəsində Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində sosial qayğıya ehtiyacı olan şəxslərlə görüşlər keçirilib, onlara bayram sovqatları təqdim edilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və müvafiq rayon İcra hakimiyyətlərinin nümayəndələri sakinləri bayram münasibətilə təbrik ediblər. Çıxışlarda vurğulanıb ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsinin təmin edilməsi və cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərin sərbəst yaşayış imkanlarının artırılması, məşğulluqlarının təmin olunması, onlara müxtəlif sosial xidmətlərin göstərilməsi, əlamətdar günlərdə tədbirlərin keçirilməsi də bu sahədə mövcud olan hərtərəfli dövlət qayğısının bariz nümunəsidir.



Qeyd edək ki, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən tədbirlərdə iştirak edə bilməyən şəxslərə evlərində baş çəkilib, bayram sovqatları təqdim olunub. Sözügedən tədbirlərdə, ümumilikdə, sosial qayğıya ehtiyacı olan 1000 nəfərə bayram sovqatları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Saxlanılan mallar müvafiq qurumlara təhvil verilib, pirotexniki vasitələr məhv edilib

Müzəffər Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, dövlət orqanları da xalq-ordu birliyinin



möhkəmlənməsinə töhfə verirlər. Mart ayının 17-də Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən 37 adda müxtəlif malların müvafiq qurumlara təhvil verilməsi həyata keçirilib.

Bu məqsədlə 1130 kiloqram alma, 180 kiloqram qırmızı kələm, 100 kiloqram peçenye, 90 kiloqram konfet, 90 kiloqram düyü, 60 kiloqram xurma, 60 kiloqram kartof, 20 kiloqram fıstıq, 18 kiloqram qarğıdalı çubuğu, 17 kiloqram bal, 10 kiloqram sarıkök Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasına təhvil verilib. Əlavə olaraq 257 közərmə lampası, 162 ədəd meyvə şirəsi, 100 kiloqram plastik qab, 49 kiloqram qənd, 16 kiloqram soğan, 2,8 kiloqram istiot, 65 qaz pilətəsi, 4 qaz sobası, 2 qaz ocağı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusuna, 2 ton üzlük daş "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına, 9 litr alma sirkəsi Heydər Əliyev adına Hərbi Liseyə, 556 dəftərxana ləvazimatı Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu və Heydər Əliyev adına Hərbi Liseyə təhvil verilib.

Saxlanılan mallardan 8 elektroşok, 7 dəyənək, 3 dəmir qandal, 2 gözyaşardıcı qaz, 75 ov silahı patronu, 4 tapança mərmisi, 300 patron qırması, 22 ədəd ov bıçağı, 1 tapança darağı Daxili İşlər Nazirliyinə, 56 balıq toru Naxçıvan "Balıqçılıq Təsərrüfatı"na təhvil verilib.

Muxtar respublikamıza qanunsuz yollarla gətirilməsinə cəhd göstərilərkən saxlanılmış pirotexniki vasitələr isə həmin gün məhv edilib. Qeyd edək ki, gömrük orqanları tərəfindən Novruz bayramı ərəfəsində xaricdən tezalışan maddələrin və pirotexniki vasitələrin gətirilməsinə qarşı mübarizə gücləndirilib. 23 dekabr 2003-cü il tarixli 565 nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən yalnız xüsusi icazə əsasında idxalına yol verilən bu tip qurğu, maddə və məmulatların vətəndaşlar tərəfindən ölkə ərazisinə gətirilməsi, satışı və istifadəsi qanunla qadağan olunub. İnsan sağlamlığına, rahatlığına, ərtaf mühitə dəyə biləcək zərər və ziyanın qarşısının alınması məqsədilə gömrük orqanları tərəfindən aşkarlanaraq saxlanılmış, ümumilikdə, 4935 ədəd pirotexniki vasitə yandırılaraq məhv edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## "Mən Naxçıvanı öyrənirəm" bilik olimpiadasının qalibləri mükafatlandırılıb



Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Ərazi Partiya Təşkilatının təşəbbüsü ilə ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən "Mən Naxçıvanı öyrənirəm" bilik olimpiadasında iştirak edən tələbələr mükafatlandırılıb. Mükafatlandırma mərasimində çıxış edən universitetin rektoru Elbrus İsayev təşkilatın bu cür təşəbbüslərini qiymətləndirərək ali təhsil ocağında bu istiqamətdə olimpiada və müsabiqələrin uğurla nəticələndiyini diqqətə çatdırıb. Bildirilib ki, muxtar respublikanın tanıdılması baxımından öz əhəmiyyətliliyi ilə seçilən olimpiada, həmçinin yüksək vətənpərvərlik hisslərinin təbliği baxımından da təqdirəlayiqdir. Qeyd edilib ki, bilik olimpiadalarının muxtar respublika ali təhsil müəssisələrini əhatə etməsi onlar arasında sıx əlaqələrin qurulmasına da xidmət edir.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev qeyd edib ki, muxtar respublikanın uğurlu inkişaf modelini gənclərə aşılamaq məqsədi daşıyan olimpiadada Naxçıvanın tarixi, ədəbiyyatı, mədəniyyəti, coğrafiyası və digər bu kimi sahələr təbliğ edilib və gənclərin yüksək bilik və bacarığı üzə çıxarılaraq onların ictimai və elmi fəaliyyəti qiymətləndirilib. Vurğulanıb ki, bilik olimpiadasında muxtar respublikanın ali təhsil müəssisələrinin tələbələri ilə bərabər, magistr və doktorantlar da iştirak ediblər.

Sonra iki mərhələdə keçirilən olimpiadanın finalında qaliblə birgə 10 iştirakçıya diplom və qiymətli hədiyyələr, ən yüksək nəticə göstərmiş 10 iştirakçıya isə diplom təqdim edilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Türkiyəli müəllim və şagirdlər: “Naxçıvanda Türk dünyasına aid olan qədim tarix-mədəniyyət abidələri həm də qardaşlığımıza, dostluğumuza ən gözəl nümunədir”



*Trabzon şəhər Mahmud Cəlaləddin Öktən Anadolu İmam Hatip Liseyinin müəllim və şagirdləri 16-17 mart tarixlərdə muxtar respublikamızda səfərdə olublar. Qonaqlar əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoyub, dahi şəxsiyyətə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyini ziyarət ediblər. Mədəniyyət ocağı ilə tanışlıq zamanı qeyd olunub ki, bu gün muzeyin fondunda ulu öndərin həyat və fəaliyyətini əks etdirən 5 mindən çox eksponat toplanıb. Muzeydə bütün Türk dünyasında sevilən dünya şöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən nadir tarixi eksponatlar böyük maraq doğurub. Sonra Naxçıvan şəhərində Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün xatirəsinə ucaldılmış büst ziyarət olunub, abidənin önündə Türkiyə Respublikasının Dövlət Himni oxunub, Kazım Qarabəkir Paşa məscidi ziyarət edilib.*

Açıq Səma Altında Muzey, Möminə xatın türbəsi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi ilə tanışlıq liseyin müəllim və şagirdlərində muxtar respublikamızın tarixi, mədəniyyəti, turizm potensialı barədə zəngin təəssürat formalaşdırıb. Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinə gələn qonaqlar dərnək üzvlərinin əl işlərindən ibarət sərgi və dərnəklərin fəaliyyəti ilə əyani tanış olublar. Tur iştirakçıları mərkəzdə yaradılan innovativ dərnəklər ilə yaxından tanış olub. Müəllim və şagirdlərə mərkəzdəki digər dərnəklər barədə də ətraflı məlumat verilib.



Liseyin müəllim və şagirdləri Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq zamanı muxtar respublikada səhiyyə turizminin inkişafı ilə bağlı zəngin məlumatlar əldə ediblər.

Səfərin ikinci günündə qonaqlar əvvəlcə Naxçıvan Dövlət Universitetinə gəliblər. Burada onlara universitet şəhərciyi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Azərbaycanda mövcud olan universitetlər arasında öndə dayanan bu ali təhsil ocağında təhsil alan tələbələrin böyük bir qismini məhz türk tələbə-gənclər təşkil etməkdədir. Bu göstəricilər ilbəil daha da artmaqdadır.

Sonra qonaqlar “Naxçıvan” Universiteti ilə tanış olublar, burada onlar filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlunun və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayevin mühazirələrini dinləyiblər. Daha sonra Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbə və Naxçıvan Dövlət Xalça Muzeyinə səfər edilib, günün sonunda isə “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində olublar.

Trabzon şəhər Mahmud Cəlaləddin Öktən Anadolu İmam Hatip Liseyinin müəllim və şagirdlərindən bir neçəsi “Şərq qapısı” qəzetinə müsahibələrində muxtar respublikamızla bağlı təəssüratlarını bölüşüblər:

***Nigar Ünal Uzun*** – Liseyin sosial elmlər müəllimi: – Həyata keçirilən bu layihə “külək odlar” diyarı adlanır, yəni rüzgar atəş ölkəsinə gəlsin deyə bu proqramı reallaşdırdıq. Liseyimizin 41 şagirdi və 4 müəllim həmkarımla bu layihədə iştirakdan çox şadıq. Proqramın əsas məqsədi pandemiya dönəmində evdə qalan, cəmiyyətdən uzaq düşən uşaqları digital aləmdən, mənfi psixologiyadan uzaq tutmaqdır. Mili-mənəvi dəyərlər, milli şüur, milli kimlik üzərində qurduğumuz layihə çərçivəsində qədim türk torpağı sayılan Naxçıvana gəldik. Türk dünyasının qardaşlığı, birliyimiz-bərabərliyimiz



şagirdlərin mənəviyyatının zənginləşdirilməsində, dünyagörüşlərinin artırılmasında böyük rol oynayır. Naxçıvanda bizi yüksək qonaqpərvərliklə qarşıladılar, sərhəddən bəri yolboyu ötəri də olsa, müasir, gözəl kəndlərinizi seyr edə bildik. Xüsusilə yaşayış məntəqələrində tikilən məktəb binalarının görkəminə heyran qaldıq. Şəhərdə də maraqlı ekskursiyalarımız oldu, Möminə xatın türbəsi möhtəşəmliyi ilə bizi valeh etdi, üzərindəki naxışların rəmzi mənası Türk dünyasının zəngin tarixi keçmişindən, mədəniyyətindən, Naxçıvanın özünəxas memarlıq məktəbindən xəbər verir. Naxçıvanqala, Nuh türbəsi Naxçıvan barədə bizdə zəngin təəssüratlar yaratdı, Duzdağ Fizioterapiya Mərkəzi də nadir rast gəlinən səhiyyə ocağı kimi diqqətimizi çəkdi. İkigünlük səfərimiz müddətində buradakı istedadlı uşaqlarla da tanış olduq, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindəki innovativ dərnəklərdə avadanlıqlar, dərnək üzvlərinin əl işləri liseyin şagirdlərində böyük maraq oyatdı. Düşünürəm ki, gələcəkdə belə turlarımız daha tez-tez olmalıdır. Qonaqpərvərliyə, mehriban münasibətə görə zəhməti keçən hər kəsə minnətdaram.

Müsahibimiz, liseyin müəllimi, psixoloq ***Hümeyra Yıldırım*** səfər barədə təəssüratlarını bizimlə bölüşərək deyir:

– Artıq iki gündür ki, Naxçıvandayıq. Etiraf edim ki, Naxçıvana gəlməmişdən əvvəl şəhər haqqında az-çox zəngin fikirlərim var idi, amma tur çərçivəsində gördüklərim məni, həqiqətən, heyrətləndirdi. Diqqətimi ən çox çəkən ünvan isə Naxçıvan Dövlət Universiteti oldu. Tibb fakültəsində şahidi oldum ki, burada çoxsaylı türk tələbə ali təhsil alır. Hesab edirəm ki, bu mənim kimi bütün müəllimlərin sevincinə, qüruruna səbəb olur. Bununla yanaşı, bizə məlumat verildi ki, Naxçıvan Dövlət Universitetində təhsil alan bütün xarici tələbələr yaxşı təhsil almaqla yanaşı, muxtar respublika rəhbərinin xüsusi diqqət və qayğısı ilə əhatə olunublar. Belə ki, burada təhsil alan tələbələrə həm də ildə bir neçə dəfə, bayram günlərində sovqatlar paylanılır, maddi yardım göstərilir. Bunun nəticəsidir ki, həmin ali təhsil ocaqlarında ali təhsil alan xarici tələbələrin sayı çoxalır. Dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan orta məktəbdə təhsil şəraiti ilə daha yaxından tanış olduq. Həttа bir tələbəmiz şahmat dərsində iştirak edərək məktəbin yeddinci sinif şagirdi ilə yarışdı və uğur qazandı. İnsanların gülərüzlü, səmimi və qonaqpərvər olması, sözsüz ki, qonağa olan ehtiramın, ən başda da bizlərə göstərilən dəyərin bariz nümunəsidir. Əminəm ki, bizim qardaş Azərbaycana, o cümlədən onun mədəniyyət, elm, irfan ocağı olan Naxçıvana səfərlərimiz kütləvi xarakter alacaq.

Digər müsahibimiz, liseyin müəllimi ***Fateh Dəmirtürk*** Azərbaycan və Türkiyə qardaşlığının hər iki ölkədə göstərdiyi bənzərsiz nəticələrindən söhbət açaraq deyir: – İlk dəfədir ki, Naxçıvana səfər edirəm, həqiqətən, bənzərsiz diyardır. Bir gün ərzində bir-birindən fərqli iqlim şəraitinin yaratdığı gözəlliklər, təbiət ecazkarlıqları insanda çox müsbət emosiyalar yaşadır. Möminə xatın abidəsini ziyarət edərkən bir daha şahid oldum ki, türk xalqı tarixinə, soykökünə, milli-mənəvi dəyərlərinə ehtiramla yanaşan, onu yaşadan xalqdır. İstər zəngin, hərtərəfli təhsil şəraiti, istər maddi mədəniyyət nümunələri, istər milli mətbəxi bir daha sübuta yetirir ki, Naxçıvan möcüzənin özü, daşlaşmış tarixin yaşıdıdır. Onun tarixinin hər sətrinə şəhidlərimizin qanı ilə yazılmış azadlıq tarixinin, mücahidlərimizin, öndərlərimizin siyasi iradəsi hesabına əldə edilmiş azadlıq dastanlarının ətri hopubdur. Mən də bizlərə göstərilən qonaqpərvərliyə, verilən dəyərə görə minnətdarlığımı bildirirəm.

***Naz Zeynəb Uzun*** – Trabzon şəhər Mahmud Cəlaləddin Öktən Anadolu İmam Hatip Liseyinin 7-ci sinif şagirdi: – Əvvəllər görmədiyimiz bir türk məmləkətinə – Naxçıvana üz tutacağımızı biləndə şagird yoldaşlarımla birgə çox sevindik. İnternetdən araşdırma aparıb diyarımız barədə xeyli məlumat öyrənə bildik. Əyani tanışlığımız ilə daha da zənginləşdi düşüncələrimiz.



Xüsusilə Heydər Əliyev Muzeyində öyrəndik ki, Türkiyə dövlətinin qurulmasında dahi öndər Mustafa Kamal Atatürkün böyük rolu olduğu kimi, qardaş ölkəmiz Azərbaycanın var olmasında da ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. Səfər müddətində Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün xatirəsinə ucaldılan abidəni və Kazım Qarabəkir Paşa məscidini də ziyarət etdik. Naxçıvanda Türk dünyasının görkəmli şəxsiyyətləri ilə bağlı bu ünvanlar qardaşlığımıza, dostluğumuza ən gözəl nümunədir. İkigünlük səfərimizin yekunu olaraq onu deyə bilərəm ki, Naxçıvan barədə yüksək fikirlərimiz formalaşdı. Bütün şagird yoldaşlarım adından bizə bu fürsəti yaradan hər kəsə, müəllimlərimizə dərin minnətdarlığımı bildirirəm.

***Begüm Türkday*** – Liseyin 7-ci sinif şagirdi: – Şagird yoldaşlarımla iki günümüz çox mənalı və yaddaqalan keçdi. Naxçıvan barədə heç vaxt eşitmədiyimiz məlumatları öyrəndik, mədəniyyət, təhsil ocaqlarında olduq, tarixi abidələri ziyarət etdik. Ən çox diqqətimizi çəkən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindəki dərnəklərin fəaliyyəti, orada sərgilənən əl işləri oldu. Həqiqətən, naxçıvanlı həmyaşıdlarımızın istedadına heyran qaldıq, innovativ dərnəklərdə onlar üçün çox gözəl şərait yaradılıb. Duzdağ Fizioterapiya Mərkəzi də çox maraqlı quruluşu, özünəməxsus aurası ilə diqqətimizi çəkdi. Şəhər gəzintimiz də olduqca yaddaqalan keçdi, Nuh türbəsi, Naxçıvanqala, Möminə xatın möhtəşəm memarlıq abidələridir. Doyunca gəzdik, şəkillər, videolar çəkdik. Qayıdanda liseyimizin digər şagirdləri ilə də təəssüratlarımızı bölüşəcəyik. Gələcəkdə yenə tur olsa böyük məmnuniyyətlə gəlmək istəyərəm. Əməyi keçən hər kəsə minnətdaram.

✍ **Nail ƏSGƏROV**
✍ **Məcid RƏŞADƏTOĞLU**

# Bir işarə də bəsdi

*Sosial şəbəkələrdə qarşıma çıxmışdı. Bir çox məşhur mahnıları işarət dili ilə ifa edirdi. Həm də gülər üzlə, qarşısındakına xoş gələn siması ilə. Mən insanların bir-birinə müsbət enerji ötürə bildiklərinə inananlardanam. Bu qızın da bildiyimiz mahnıları fərqli formatda təqdim etməsi diqqətimi cəlb etmiş, xoşuma gəlmişdi. Elə oradaca səhifəsini izləməyə başlamış, hətta bir neçə ifasına dalbadal baxmışdım da. Gənc istedada dəstək məqsədilə “Instagram” hekayəmdə də paylaşmışdım. Bir müddət sonra ana səhifədə onun yeni videosu ilə qarşılaşdım. Həmin tərz, həmin üslub, həmin sima, həmin enerji. Bu dəfə mesaj yazıb xoş arzularımı çatdırdım və beləcə, söhbətimiz başladı. Bildəndə ki, Naxçıvan şəhərində yaşayır, Naxçıvan Dövlət Universitetinin tələbəsidir, lap çox marağıma səbəb oldu və onunla görüşmək üçün iş yerimə dəvət etdim. Sağ olsun, bir neçə gün sonra razılaşdığımız vaxtda gəldi.*

Qəribə aurası var. Uzun qıvrım saçları yumru şən simasını gizlətsə də, eynəyinin altından üzümə zillənən həyat dolu baxışları daxili dünyasında dərin duyğuların gizləndiyindən xəbər verirdi. Danışmağa o qədər də həvəsli olmayan bu qıza əvvəlcə özü haqqında suallar verdim.

Səbinə İsmayıllı 2002-ci ildə Naxçıvan şəhərində anadan olub. 2008-2019-cu illərdə Naxçıvan şəhərindəki Hüseyn Cavid adına 5 nömrəli tam orta məktəbdə oxuyub. Hazırda Naxçıvan Dövlət Universitetinin Fars dili tərcüməçiliyi ixtisası üzrə III kurs tələbəsidir. 2016-cı ildən – 7-ci sinifdə oxuyarkən işarət dilinə maraq göstərməyə başlayıb. Beləliklə də, internet üzərindən bu dili ciddi maraqla öyrənməyi qarşısına məqsəd qoyub. Hələ orta məktəbi bitirməmişdən artıq işarət dilini tam mənimsəyən Səbinə dərslərindən, hazırlıqlarından fürsət tapan kimi bununla bağlı videoçarxlar çəkməyə başlayıb.



Səbinənin bu marağının nədən qaynaqlandığını xəbər alıram. Görəsən, ailədə, ətrafda dost-tanışlardan, qohum-əqrəbadan, sinif yoldaşlarından danışma və eşitmə problemi olan kimsə varmı? Kimsə görəmi bu cür bir çətin sahəni öyrənməyə həvəs göstərib? Yoxsa bu bir hobbidir?

Səbinə suallarımın heç birinin əsas olmadığını deyir. Və davam edərək bildirir ki, bu, sadəcə, şəxsi maraq idi. Hobbi kimi də baxmır. Kimlərdənsə fərqlənmək istəyi də deyil. Ətrafında da bu cür insan yoxdur. Hətta öyrəndikdən sonra biliklərini yoxlamaq üçün sosial şəbəkələr vasitəsilə danışma və eşitmə problemi olan insanları arayıb-axtarıb və onlarla işarət dili vasitəsilə danışıb.

Naxçıvanda onun kimi bu dili bilənlərin olub-olmadığını soruşanda isə vurğuladı ki, belələri ilə qarşılaşmayıb. Elə buna görə də bildiklərini indidən başqalarına öyrətməyə də canla-başla razıdır və hazırdır.

Səbinənin buna rəsmi səlahiyyəti də çatır. Belə ki, 2018-ci ilin dekabr ayında İstanbul İşlətmə İnstitutunun təşkil etdiyi birhəftəlik “İşarət dili eğitimi”nə qatılaraq imtahan vermiş və nümayiş etdirdiyi müvəffəqiyyətinə görə ona “İşarət dili eğitimi” sertifikatı verilmişdir.

Planlarından, gələcək arzularından bəhs etməsini istəyəndə elə ilk olaraq İşarət dili kursu açmaq istəyindən danışdı. Hələ ki, insan duyğularını özündə əks etdirən mahnıları eşitməkdən, danışmaqdan məhrum olan insanlara çatdıra bilməsindən zövq aldığını, gələcəkdə ən məşhur şeirləri, hətta bəzi qısa hekayələri belə işarət dili vasitəsilə canlandırmaq arzusunu dilə gətirdi.

Söhbət etdikcə bu cılız bədənli tələbənin böyük ürəyində kiçik görünən nəhəng xeyriyyə fəaliyyətlərinin varlığını da öyrəndim. Uşaqlara, fiziki qüsurlulara, kimsəsizlərə, kasıblara maddi və mənəvi yardım etməyin onu hədsiz dərəcədə xoşbəxt etdiyini dilə gətirir. Bəs pulu haradan alırsan? – sualıma isə ailəmin mənə verdiyi xərclərimdən qənaət edərək, – deyə qısa cavab verir. Utancaq şəkildə bunu kimsənin bilməsini istəmədiyini dilə gətirsə də, düşünürəm ki, bu cür gəncləri örnək kimi təbliğ etmək lazımdır.

Gələcək arzuları, planları arasında video-blogger olmaq və bu sayədə qazandığı pulları daha çox insana kömək etmək istəyi var.

“ism.sabina” adlı “Instagram”, “Sabina İsmayıllı” adlı “YouTube” hesabına yüklədiyi videolarına gələn fikirləri, rəyləri oxuduqca ona olan hörmətim daha da artır. Düşünürəm ki, Səbinə internetin müsbət tərəflərindən istifadə etməyin nümunəsi kimi də yeniyetmələrə örnək ola bilər.

Bəzi xəbər proqramlarında, verilişlərdə, danışma və eşitmədə qüsurlu olan insanlara təlimlər verilməsində öz bacarığından istifadə etmək istəyib-istəmədiyini də öyrəndim. Bu barədə elə də məlumatlı olmadığını, amma əgər bacarığına ehtiyac yaranarsa, həvəslə bu cür işlərdə fəaliyyət göstərməyə hazır olduğunu dilə gətirdi.

İnadkarlığı, zəhməti və əzmkarlığı sayəsində fərqli bir istedada, bacarığa yiyələnmiş Səbinə İsmayıllı ilə, təxminən, bir saata yaxın söhbət etdikdən sonra düşündüm ki, istedad təkcə şeir, musiqi, rəsm, idman və sairlərlə məhdudlaşmır. Öz üzərində işləyərək məktəbli vaxtlarından fərqli bir bacarığa yiyələnmək də istedad göstəricisidir.

Səbinə otağımdan çıxarkən qeyri-ixtiyari olaraq işarət dilində bu diqqətim üçün təşəkkürünü bildirdi. Ya da mən elə başa düşdüm. Amma, deyəsən, düz başa düşmüşdüm. Simasındakı ifadə də onu göstərirdi. Bir də ki, bəzən qarşındakını anlamaq üçün bir işarə də bəsdi.

**Elxan YURDOĞLU**

## Novruz bayramı bu il də xoş əhvali-ruhiyyə ilə keçəcək



***Milli bayramımız olan Novruzun astanasındayıq. Bu bayram ölkəmizdə, eləcə də onun ayrılmaz hissəsi olan muxtar respublikamızda xüsusi təmtəraqla, böyük el şənlikləri ilə qeyd edilir. Şənliklər çərçivəsində xalq yaradıcılığı və folklor nümunələrimiz, milli musiqi və yallılarımız, rəngarəng konsert proqramları, teatr tamaşalarından səhnəciklər iştirakçılara təqdim edilir. Bu il də muxtar respublikamızda Novruz bayramı təntənə ilə qeyd ediləcək.***

Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Ali Məclisin Aparatı və Mədəniyyət Nazirliyinin qarşısında Novruz bayramının keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlanması, Naxçıvan şəhəri və rayon mərkəzlərinin Novruz bayramına uyğun bəzədilməsi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində və rayon mərkəzlərində ictimai iaşə xidməti və xalq gəzintilərinin, eləcə də musiqi kollektivlərinin çıxışlarının təşkil olunması ilə bağlı mühüm tapşırıqlar vermişdir. Digər mədəni müəssisələrlə yanaşı, musiqi kollektivləri və ansambllar əyləncəli, rəngarəng proqramları ilə şənliyə toplaşanlara əsl bayram əhvali-ruhiyyəsi yaşadacaqlar. Biz də Naxçıvan Musiqi Kolleci ansambllarının və Naxçıvan Aşıqlar Birliyinin fəaliyyəti və bayram şənliyində hansı repertuarla çıxış edəcəkləri barədə öyrəndiyimiz məlumatlar barədə oxucularımızı da tanış etmək qərarına gəldik.



Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə 1975-ci ildə yaradılan Naxçıvan Musiqi Kollecinin musiqiçi kadrların hazırlanmasında xüsusi yeri və rolu vardır. Hazırda Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən kollecdə tədris edilən ixtisaslar üzrə istedadlı və bacarıqlı gənclər yetişirlər. Bu il Novruz bayramı ilə əlaqədar keçirilən şənlikdə kollecin “Gənclik” instrumental ansamblı da iştirak edəcək. Ansamblın bədii rəhbəri Sahil Qasımovla həmsöhbət oluruq. O, kollecin qarmon ixtisası üzrə müəllimi və hazırda da ansamblın bədii rəhbəridir. Müsahibim “Gənclik” instrumental ansamblının fəaliyyəti barədə danışır: – Ansambl muxtar respublikamızda keçirilən dövlət tədbirlərində, festivallarda, hərbi hissələrdə, eləcə də bayram günləri ilə bağlı keçirilən konsertlərdə həmişə fəal iştirak edir. 2020-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Gənclik” instrumental ansamblının canlı yayımla konserti olub. Konsert proqramında Azərbaycan bəstəkarlarının yaradıcılığından və muğam sənətimizdən nümunələr səsləndirdik və çox maraqla qarşılandı. Altı musiqiçidən ibarət olan ansamblın tərkibinə milli musiqi alətləri ilə yanaşı, Avropa musiqi alətləri də daxildir. Bu da ifa olunan əsərlərin müxtəlif tembrdə səslənməsinə şərait yaradır. Ansamblın repertuarına klassik muğam, Azərbaycan mahnı və rəqsləri, eləcə də Avropa bəstəkarlarının əsərləri daxildir. Hamımızın sevərək gözlədiyi Novruz bayramına daha mütəşəkkil hazırlaşırıq. Bu il də ansamblın ifasında ritmik Azərbaycan mahnı və rəqsləri səslənəcək.

Kollecin “Naxçıvanqala” ritm qrupu da Novruz şənliyində iştirak edərək bayrama rəng qatacaq. Qrupun yaradıcısı və bədii rəhbəri Mustafa Məmmədov söhbətimiz zamanı dedi ki, Naxçıvan Musiqi Kolleci yaranan vaxtdan bu ansambl fəaliyyət göstərir: – Ansamblın yaranması mənim təşəbbüsümlə həyata keçirilib və kollecin nağara ixtisasında oxuyan tələbələrdən ibarətdir. Ansamblda yer alan zərb musiqi alətləri haqqında məlumat verən müsahibim bildirir ki, zərb çalğı alətlərinin kökləri çox qədimlərə gedib çıxır. Keçmiş dövrlərdə insanlar müəyyən vasitələrlə ritmlər yaratmışlar. Hazırda musiqi sənətimizin təbliğində bir çox zərb alətlərindən geniş istifadə edilir. Belə zərb çalğı alətləri arasında ən geniş yayılmışı nağaradır. Nağara bütün ansambllarda, orkestrlərdə, el şənliklərində bir növ musiqinin döyünən ürəyi, aparıcı qüvvəsidir. Bu musiqi alətinin müxtəlif növləri var. Novruz bayramı şənliyində qoşa nağara, nağara, bas nağaralar, davullar və bir də dəfdən istifadə edəcəyik. Əlavə olaraq şıqşıq, şaqşaq, lakkultu – zərb alətlərinin bəzəkverici alətləri də olacaq. Adətən, ansamblın repertuarını kompozisiya şəklində qurmağa üstünlük veririk. Bu il “Yenilməz batalyon” kinofilmindən bir kompozisiya qurmuşuq ki, əsl el şənliyi üçündür. İkinci hissədə də milli rəqslərimizdən bir parça salmışıq. İnanırıq ki, bu bayram şənliyi də gözəl keçəcək.



Kollecin “Sazçalanlar” ansamblının bədii rəhbəri Həsən Həsənov isə deyir ki, simli çalğı aləti saz aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir. Özündə çalğı, oxuma, şeir demə, söz və dastan ifaçılığı, aktyorluq və rəqs sənətlərini birləşdirən saz-söz sənətinin milli mədəniyyətimizin formalaşmasında mühüm rolu vardır. “Kitabi-Dədə Qorqud” dastanında adıçəkilən qopuz təkamül yolu keçərək saz aləti şəklini, XVI əsrdə Dirili Qurbaninin dövründə isə müasir vəziyyətini alıb. Sazlar ölçülərinə, pərdələrin və simlərin sayına görə müxtəlif olur. Xalq çalğı alətləri orkestrində qoltuq və ya cürə sazdan solo alət kimi istifadə olunur.



Naxçıvanda keçirilən bayram şənliklərində mütəmadi olaraq iştirak edən, ifaları ilə bayrama bəzək qatan digər bir mədəniyyət müəssisəsi Naxçıvan Aşıqlar Birliyidir. Birliyin üzvü Gülzar Əhmədli ilə həmsöhbət oldum. Öyrəndim ki, Gülzar xanım həm də Naxçıvan şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbinin saz ixtisası müəllimi kimi fəaliyyət göstərir. O qeyd etdi ki, muxtar respublikamızda aşıq sənəti və aşıq yaradıcılığına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2009-cu ildə Naxçıvan Aşıqlar Birliyi yaradılıb. Birliyin yaranması Naxçıvanda yaşayıb-yaradan aşıqları bir araya gətirib. Həmin tarixdən etibarən Naxçıvan aşıq sənətində yeni inkişaf mərhələsi başlayıb, aşıq sənətinə göstərilən belə diqqət və qayğı Naxçıvan aşıqlarının yaradıcılıq imkanlarını da genişləndirib: – Novruz bayramı Azərbaycanda geniş miqyasda qeyd olunduğu kimi, diyarımızda da bununla bağlı möhtəşəm el şənlikləri keçirilir. Novruz bayramı həm də bir növ saz-söz bayramı adlanır. Ona görə də bayram şənliklərinə aşıqlar dəvət edirlər ki, sözlər oxunsun, sazlar dilə gəlsin. Təbiətin oyanışı, bu gözəllik aşıqların da dilində vəsf olunub. Novruzda bütün nikbin ovqatlı mahnılar, şux, oynaq musiqilər ifa olunur. Bunlardan “Ovşarı”, “Baş Sarıtel”, “Orta Sarıtel”, “Orta şəşəngi” kimi aşıq havalarını misal göstərə bilərəm. Bu bayramda ifa edəcəyimiz “Gödək donu”, “Bəhri divani”, “Paşa köçdü” kimi aşıq havaları olacaq. Fürsətdən istifadə edərək xalqımızı bu gözəl bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir:* ***“Novruz bayramı insanlarda yeni ovqat yaradır. Sabaha olan inamı artırır. Ölkəmizdəki mövcud sabitlik və inkişaf imkan verir ki, xalqımız bu il də özünün əziz bayramını quruculuq və əmin-amanlıq şəraitində qeyd etsin...”*** *Milli bayramımız Novruz hər il muxtar respublikamızda xüsusi təntənə ilə qeyd olunur, xalq yaradıcılığı günləri keçirilir. Bu il martın 19-u saat $11^{00}$-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində ənənəvi Novruz şənliyi başlayacaq. Siz də milli mədəniyyətimizdən zövq alıb milli dəyərlərimizin zəngin nümunələri ilə əsl bayram ovqatı yaşamaq istəyirsinizsə, birlik, mehribanlıq, səmimiyyət, yüksək əhvali-ruhiyyə bəxş edən ənənəvi Novruz şənliyində iştirak edin.*

**Güntac ŞAHMƏMMƏDLİ**

***Sədərək rayonunun Dəmirçi kəndində dünyaya göz açıb Qarabağımızın azad olunması uğrunda gedən haqq savaşımızda şəhadətə yüksələn Rüfət Gözəlov dünyaya gəldiyi gün məzarı başında anılıb.***

## Şəhidin anım tədbiri olub



Tədbiri rayon İcra Hakimiyyəti aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Vüqar Süleymanov açaraq bildirib ki, ölkə başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Dövlət-xalq-ordu birləşərək 30 il işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. Tarixi ədalətin bərpa olunmasında Naxçıvanın igid oğullarının da qəhrəmanlığı dillərə düşdü. Onlar torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərib yurdumuza qəhrəman kimi qayıtdılar. İgidliyi ilə adını tarixə yazan həmyerlilərimizdən biri də Rüfət Gözəlovdur.

Qeyd olunub ki, Rüfət Gözəlov 1996-cı il martın 17-də Dəmirçi kəndində anadan olub. Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət həqiqi qulluqçusu olan Rüfət Gözəlov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda döyüşüb, şəhidlik zirvəsinə yüksəlib. O, Şərur şəhər Şəhidlər xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan Rüfət Gözəlov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən “Vətən uğrunda”, “Hərbi xidmətlərə görə”, “Şuşanın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhidin anası Ruhəngiz Gözəlova göstərilən diqqətə görə minnətdarlığını bildirərək deyib ki, uzun illərdir, hamımızın ürəyində bir qor yanırdı. Bir dərd daşıyırdıq hamımız: yurd həsrəti. Şükür Allaha ki, illərdir, davam edən ədalətsizliyə son qoyuldu. İgid övladlarımız qanayan yaramıza məlhəm oldular. Onlar öz canları bahasına qələbə qazanıb başımızı uca etdilər. Vətən müharibəsi başlayandan cəmi 29 gün sonra oğlum əbədiyyətə qovuşdu. Övladını itirmiş bir valideynin ürəyindəki dərdi heç nə sağalda bilməsə də, dövlətimizin qayğısı dərdimizə məlhəm olur. Bütün şəhid ailələrinin bircə təsəllisi var: əzizlərimizin xatirəsinə ehtiramla yanaşılır, onlar unudulmur. Şəhidlərin ruhu isə onların arxada qoyub getdiyi ailəsindən rahat olanda şad olur. Bu gün bilirəm ki, oğlumun ruhu şaddır. Çünki onun ailəsinə ehtiram göstərilir.

Sonda şəhidin ruhuna dualar oxunub, rayon ziyalıları və şəhidin müəllimləri onun igidliyindən danışıb, məktəblilər qəhrəman şəhidlərimizə həsr edilmiş şeirləri bədii qiraət ediblər.

**Ramiyyə ƏKBƏROVA**

## Boksçularımızdan bürünc medal



Martın 8-də yeniyetmə boksçular arasında start götürən Azərbaycan birinciliyinə yekun vurulub. Respublikanın müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 63 komandanın 327 boksçusu gücünü yoxlayıb. 7 gün davam edən birincilikdə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 6 yetirməsi də mübarizə aparıb.

Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayevin də izlədiyi ölkə birinciliyində idmançılarımız iki bürünc medal əldə ediblər. Belə ki, 52 kiloqram çəki dərəcəsində Elbrus Kərimli və 80 kiloqram çəki dərəcəsində Kənan Allahverdiyev Azərbaycan birinciliyini üçüncü pillədə başa vurublar.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Tibb Kolleci

### *2022-2023-cü tədris ili üçün Hərbi feldşer işi ixtisasına tələbə qəbulu elan edir*

Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasında təhsil Azərbaycan dilində, əyani formada 3 il müddətinə aparılır. Dövlət təhsilalanların qeyd olunan ixtisas üzrə pulsuz təhsil almaq hüququnu təmin edir. Hərbi feldşer işi ixtisasına cari ildə tam orta ümumtəhsil müəssisəsini bitirən, sentyabr ayının 15-nə kimi 19 yaşı tamam olmayan və hərbi-həkim komissiyasının rəyinə əsasən təhsil almağa yararlı sayılan oğlanlar qəbul edilir.

Naxçıvan Tibb Kollecinin Hərbi feldşer işi ixtisasına qəbul olunmaq istəyən namizədlər 01.04.2022-ci il tarixdən 30.04.2022-ci il tarixədək Naxçıvan Tibb Kollecinin direktoruna ərizə ilə müraciət etməlidirlər.

***Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:***

*1. “Abituriyentin elektron ərizəsi”nin surəti*

*2. Şəxsən yazılmış tərcümeyi-hal*

*3. Doğum haqqında şəhadətnamənin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş)*

*4. Şəxsiyyət vəsiqəsinin surəti (məktəbin direktoru tərəfindən təsdiq olunmuş)*

*5. Cari ildə məzun olması haqqında arayış*

*6. Təhsil aldığı yerdən xasiyyətnamə*

*7. 2 ədəd rəngli fotoşəkil (3 x 4)*

*8. Valideynlərin və ya qəyyumluq edən şəxslərin razılıq ərizələri (valideynləri vəfat etdiyi halda ölüm haqqında şəhadətnamənin surəti)*

*9. Tibbi göstərişlərə görə qanın Vasserman, İİÇV sereoloji reaksiyasına və hepatit B, C daşıyıcılığına müayinəsinin nəticələri*

*10. Psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi xəstəliklər üzrə qeydiyyatda olub-olmadığı haqqında arayışlar.*

### *İtmişdir*

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Qasımov Hüseyn Əziz oğlunun adına olan JN-457A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əliyev Hüseyn Əli oğlunun adına olan 75-BJ-619 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 246